**BAKI ŞƏHƏRİNDƏKİ 41 SAYLI ORTA ÜMUMTƏHSİL MƏKTƏBİNƏ AZƏRBAYCANIN XALQ YAZIÇISI İLYAS ƏFƏNDİYEVİN ADININ VERİLMƏSİ BARƏDƏ**

Azərbaycan Respublikası Prezidentinin "İ.M.Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" 9 mart 2001-ci il tarixli 642 saylı sərəncamının II bəndinə uyğun olaraq

**ƏMR EDİRƏM:**

1. Bakı şəhəri Nəsimi rayonundakı 41 saylı orta ümumtəhsil məktəbinə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli ədibi, xalq yazıçısı İlyas Əfəndiyevin adı verilsin.
2. Bakı Şəhər Baş Təhsil İdarəsinə (A.Cahangirov) və Nəsimi Rayon Təhsil Şöbəsinə (M.Qəzənfərov) tapşırılsın ki, bu əmrdən irəli gələn digər məsələlərin icrasını təmin etsinlər.
3. Əmrin icrasına nəzarət nazir müavini İ.İsgəndərova həvalə edilsin.

**Təhsil naziri: Misir MƏRDANOV."**

("Azərbaycan müəllimi" qəzeti, 12 aprel 2001.)